# Qarabağda məntəqə seçki komissiyalarının üzvləri üçün treninqlər davam edir

## 122 saylı Xankəndi seçki dairəsi



122 saylı Xankəndi seçki dairəsi 15 məntəqəni əhatə edir. Məntəqələrdən 4-ü Bakıda, biri Sumqayıtdadır. Qalan 10 məntəqə isə digər rayon və şəhərlərdə yerləşir. Dairənin Xankəndi şəhərində iki daimi və bir müvəqqəti məntəqəsi var. Dairə sırf Xankəndi şəhərini əhatə edir. Seçicilər həmin şəhərin sakinləridir. Dairə üzrə 80 yaşdan yuxarı seçicilərin sayı 140 nəfər, ilk dəfə səs verənlərin sayı isə 68 nəfərdir.

Bu barədə AZƏRTAC-a 122 saylı Xankəndi seçki dairəsinin dairə seçki komissiyasının sədri Ağalar Əliyev məlumat verib.

Onun sözlərinə görə, sentyabrın 1-nə təyin edilmiş Milli Məclisə seçkilər ilə əlaqədar 122 saylı Xankəndi seçki dairəsinin dairə seçki komissiyasında məntəqə seçki komissiyalarının sədr, katib və üzvləri üçün treninqlər iki formada keçirilir. Bakı və Sumqayıt məntəqələrinin nümayəndələri treninqlərdə tam heyətlə iştirak edirlər. Rayonlarda yerləşən məntəqələrin nümayəndələri isə təlimə onlayn qaydada qoşulurlar. Treninqlər vasitəsilə həm təlimatlar verilir, həm də məntəqə üzvlərinin sualları cavablandırılır.

## 124 saylı Şuşa-Ağdam-Xocavənd seçki dairəsi



Sentyabrın 1-nə təyin edilmiş Milli Məclisə seçkilərlə əlaqədar avqustun 13-də 124 saylı Şuşa-Ağdam-Xocavənd dairə seçki komissiyasında məntəqə seçki komissiyalarının sədr, katib və üzvləri üçün treninqlər keçirilib.

Treninqdə çıxış edən 124 saylı Şuşa-Ağdam-Xocavənd dairə seçki komissiyasının sədri Mədinə Abbasova Milli Məclisə seçkilərdə şəffaflığın və aşkarlığın təminatı üçün məntəqə seçki komissiyalarında hər cür şəraitin yaradıldığını, onların zəruri avadanlıqlarla təchiz olunduğunu vurğulayıb.

Onun sözlərinə görə, təlimlərin məqsədi seçki komissiyaları üzvlərinin məlumatlılığını və peşəkarlığını artırmaqdır. Bildirilib ki, seçki məntəqələrinin üzvləri, ilk növbədə, vətənpərvər və məsuliyyətli olmaqla yanaşı, Seçki Məcəlləsi və təlimatlarla yaxından tanış olmalı, ona düzgün əməl etməlidirlər.

Mədinə Abbasova seçkilərə hazırlıq işlərinin uğurla davam etdiyini, məntəqələrdə seçkilərin şəffaf və demokratik keçirilməsi, komissiya üzvlərinin normal fəaliyyəti üçün zəruri şəraitin yaradıldığını deyib.

Qeyd olunub ki, dairədə namizədlərin sayı 8, seçki məntəqələrinin sayı isə 93-dür (4 məntəqə işğaldan azad edilmiş ərazilərdə yerləşən yeni açılmış məntəqələrdir). Dairə üzrə müşahidəçilərin sayı 200-dən, məşvərətçilərin sayı isə 100-dən artıqdır. Bundan başqa, 450 nəfər ilk dəfə səs verəcək.

Diqqətə çatdırılıb ki, sözügedən dairə üzrə ən yaşlı seçicinin 99 yaşı var.

Tədbirdə MSK tərəfindən hazırlanmış slaydların və əyani vəsaitlərin köməyi ilə iştirakçılara səsvermə günü məntəqə seçki komissiyaları üzvlərinin rolu və vəzifələri, səsvermə otağının təşkili qaydası, seçki günü müşahidəçilərin hüquqları, məntəqənin açılması, səsvermə ilə bağlı məlumatların verilməsi saatları, səsvermədə iştirak edən vətəndaşların barmağının mürəkkəblə işarələnməsi, hansı halda seçicinin səsvermə hüququndan istifadə edə bilməyəcəyi, səslərin hesablanması ilə bağlı geniş məlumatlar verilib.

## 125 saylı Zəngilan-Qubadlı seçki dairəsi

Sentyabrın 1-nə təyin edilmiş növbədənkənar parlament seçkiləri ilə əlaqədar avqustun 13-də 125 saylı Zəngilan-Qubadlı seçki dairəsinin dairə seçki komissiyasında məntəqə seçki komissiyalarının sədr, katib və üzvləri üçün treninqlərə başlanılıb. Avqustun 17-dək davam edəcək təlimlərin məqsədi seçki komissiyaları üzvlərinin məlumatlılığını və peşəkarlığını artırmaqdır.



Treninqlərdə ümumilikdə 84 nəfərin iştirakı nəzərdə tutulub.

Məşğələləri Mərkəzi Seçki Komissiyasının (MSK) təlim kursunda iştirak etmiş Nazim Abbasov və Məhəmməd Əhmədov aparırlar.

MSK tərəfindən hazırlanmış slaydların və əyani vəsaitlərin köməyi ilə iştirakçılara səsvermə günü məntəqə seçki komissiyaları üzvlərinin rol və vəzifələri, seçki prosesində müstəsna hallar, səslərin hesablanmasına hazırlıq, seçki bülletenlərinin təsnifatı, səslərin hesablanması və yekun protokolun doldurulması, səsvermə prosesinə dair praktiki tapşırıqlar və sair ilə bağlı məlumatlar verilir. Təlim iştirakçılarına bununla bağlı "Yaddaş kitabçası" təqdim edilir.

Dairə seçki komissiyasının sədri Əli Mönsünov seçkilərə hazırlıq işlərinin uğurla getdiyini, məntəqələrdə seçkilərin şəffaf və demokratik keçirilməsi, komissiya üzvlərinin normal fəaliyyəti üçün lazımi şəraitin yaradıldığını bildirib. O qeyd edib ki, məntəqələr seçki kabinələri, təşviqat, məlumat, seçici siyahısı lövhələri, generatorlar, elektrik fənərləri, daşınmaz və daşınan seçki qutuları, qeydiyyat dəftərləri, Seçki Məcəlləsi, parlament seçkilərinə dair təlimatlar ilə təmin olunub. Sağlamlıq imkanları məhdud seçicilər də diqqətdən kənarda qalmayıb, məntəqələrdə onlar üçün panduslar quraşdırılıb.

"Hazırda dairədəki seçicilərin sayı isə 60 min 382-yə bərabərdir. Dairə üzrə 783 nəfər ilk dəfə səs verəcək", - deyə Ə.Mönsünov qeyd edib.

## 121 saylı Laçın seçki dairəsi



121 saylı Laçın seçki dairəsi dairə seçki komissiyasında məntəqə seçki komissiyalarının üzvlərinin maarifləndirilməsi üçün treninqlər davam edir.

Dairə seçki komissiyasının sədri Hüseyn Səfərov bildirib ki, treninqlər Mərkəzi Seçki Komissiyası (MSK) tərəfindən təşkil olunmuş təlim kurslarında iştirak etmiş trenerlər tərəfindən aparılır. On gün davam edəcək treninqlər gün ərzində iki dəfə olmaqla, hər sessiyada 36 nəfər məntəqə seçki komissiyası üzvünün iştirakı ilə keçirilir. İştirakçılara slaydların köməyi ilə seçki məntəqələrinin səsverməyə hazırlanması, səsvermə günü prosedurları, səslərin hesablanması, səsvermənin nəticələri haqqında protokolun doldurulması və digər məsələlər barədə metodiki məlumat və tövsiyələr verilir. Treninq zamanı müzakirələr aparılır, iştirakçıları maraqlandıran suallar cavablandırılır. Aşağı seçki komissiyası üzvlərinə Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanan "Seçki günü üçün yaddaş" kitabçası, eləcə də səsvermənin nəticələri haqqında protokol nümunəsi və bir sıra digər zəruri metodiki vəsaitlər, əyani materiallar da təqdim olunur. 121 saylı seçki dairəsi üzrə treninqlər avqustun 22-də başa çatacaq.

Qeyd edək ki, sentyabrın 1-nə təyin olunan Azərbaycan Respublikası Milli Məclisinə seçkilər 121 saylı Laçın seçki dairəsi üzrə 110 məntəqədə keçiriləcək. Laçın rayonundan olan seçicilər respublikanın müxtəlif şəhər və rayonlarında səs verəcəklər. Məntəqələrin altısı işğaldan azad edilmiş ərazilərdə yerləşir. Dairə üzrə 57 min 649 seçici qeydə alınıb ki, onlardan 766 nəfəri ilk dəfə seçki hüququndan istifadə edəcək gənclərdir. Seçicilərin 1367 nəfəri 80-100 yaş aralığındadır. Bir seçicinin yaşı isə 100-dən yuxarıdır.

## 84 saylı Füzuli seçki dairəsi



84 saylı Füzuli seçki dairəsinin dairə seçki komissiyasında aşağı seçki komissiyalarının üzvləri üçün maarifləndirici treninqlər davam edir. Avqustun 12-19-da dairə üzrə ümumilikdə 13 treninq keçiriləcək.

Dairə seçki komissiyasından bölgə müxbirinə bildirilib ki, treninqlər dairənin tərkibinə daxil olan 78 seçki məntəqəsindən sədr, katib və komissiya üzvlərinin iştirakı ilə Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanmış xüsusi proqram əsasında aparılır. Məşğələlər zamanı iştirakçılara seçki məntəqələrinin səsverməyə hazırlanması, səsvermə günü prosedurları, səslərin hesablanması, səsvermənin nəticələri haqqında protokolun doldurulması və digər məsələlər barədə metodiki məlumat və tövsiyələr verilir, komissiya üzvlərinin sualları cavablandırılır.

Hər bir iştirakçıya Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanan "Seçki günü üçün yaddaş" kitabçası, eləcə də səsvermənin nəticələri haqqında protokol nümunəsi və bir sıra digər zəruri metodiki vəsaitlər, əyani materiallar təqdim olunur.

Qeyd edək ki, sözügedən dairə üzrə 78 seçki məntəqəsi var. Seçki məntəqələrindən 4-ü işğaldan azad olunan Füzuli şəhərində yerləşir ki, onlardan da 1-i yeni yaradılıb. Dairə üzrə ümumilikdə 54 min 246 seçici qeydə alınıb, səsvermədə ilk dəfə iştirak edənlərin sayı 583 nəfərdir. İşğaldan azad olunan Füzuli şəhərindəki 4 seçki məntəqəsində isə 3853 nəfər seçici qeydə alınıb.

## 85 saylı Füzuli-Ağcabədi seçki dairəsi



Sentyabrın 1-də ölkəmizdə keçiriləcək Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasının (MSK) maarifləndirmə proqramı çərçivəsində aşağı seçki komissiyalarının üzvləri üçün təşkil olunan treninqlər Ağcabədi rayonunda uğurla davam edir.

85 saylı Füzuli-Ağcabədi seçki dairəsi dairə seçki komissiyasının sədri İbrahim Həsənov bildirib ki, treninqlər seçki dairəsi üzrə 366 aşağı seçki komissiyası üzvünü əhatə edir. Altı gün davam edəcək məşğələlər gün ərzində iki dəfə olmaqla, qruplar şəklində keçirilir. Məşğələləri Mərkəzi Seçki Komissiyası (MSK) tərəfindən təşkil olunan "Trenerlər üçün treninq" kursunda iştirak etmiş Bəyoğlan Tağıyev və Allahverdi Heydərov aparırlar.

Treninq zamanı hər bir aşağı seçki komissiyası üzvünə həm təlimlərdə istifadə etmələri, həm də seçki günü prosedurları ilə yaxından tanış olmaları məqsədilə MSK-nın hazırladığı "Seçki günü üçün yaddaş" kitabçası, səsvermənin nəticələrinə dair protokol nümunəsi, habelə digər əyani və metodiki vəsaitlər verilir.

Aşağı seçki komissiyaları üzvləri üçün maarifləndirici treninqlər 86 saylı Ağcabədi seçki dairəsində də mütəşəkkil qaydada davam edir. Dairə seçki komissiyasının sədri Famil İsmayılovun bildirdiyinə görə, treninqlərə dairənin tərkibinə daxil olan 54 seçki məntəqəsindən 324 nəfər komissiya üzvü cəlb edilib. Təlimləri Mərkəzi Seçki Komissiyası tərəfindən təşkil edilən "Trenerlər üçün treninq" kursunun iştirakçıları Fərahim Xudiyev və İlham Qurbanov aparırlar.

Kiçik qruplar şəklində gün ərzində iki dəfə keçirilən treninq zamanı seçki günü məntəqə seçki komissiyaları üzvlərinin rol və vəzifələri, səsvermə prosesi, səslərin hesablanması, protokolun doldurulması və sair mövzularda təqdimatlar edilir, müzakirələr aparılır və meydana çıxan suallar cavablandırılır. 86 saylı seçki dairəsi üzrə treninqlər avqustun 16-da başa çatacaq.